# Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

1. Döyüş təyinatlı hərbi texnika.

2. Qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı.

3. Dövlət hakimiyyəti orqanlarının rabitə şəbəkəsi, müdafiə, təhlükəsizlik və asayişi mühafizə ehtiyacları üçün nəzərdə tutulan rabitə şəbəkələri.

4. Müdafiə, milli təhlükəsizlik, hərbi əks-kəşfiyyat, xüsusi dövlət mühafizə xidməti orqanlarının şəxsi heyətinin xüsusi ləvazimatı və onların istehsalına və işlədilməsinə dair normativ-texniki sənədlər.

5. Hərbi səfərbərlik təyinatlı əmlak.

6. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər.

7. Dövlət kəmiyyət vahidləri etalonları.

8. Dövlət, peşə, qulluq, bank, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına dair məlumatları əks etdirən sənədlər.

*9. Azərbaycan Respublikasının qızıl ehtiyatı və əyar damğası.*

10. Pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıq.

11. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr ~~və prekursorlar~~ .

12. İnsan orqanı və (və ya) toxumaları.

13. Tətbiqi müəyyən edilmiş qaydada qadağan edilmiş dərman vasitələri.

14. Rəsmi sənədlər, şəxsiyyəti təsdiq edən sənədlər, Azərbaycan Respublikasının dövlət təltifləri.

15. Dövlət arxiv fondunun sənədləri.

*16. Hazırlanmasının və ya uyğunlaşdırılmasının əsas məqsədi kibercinayətlər törətmək olan qurğular və ya kompüter proqramları.*

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 23 dekabr 2003-cü il***

***№ 564-IIQ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 fevral 2004-cü il, № 37) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (29 fevral 2004-cü il, № 2, maddə 55) («VneshExpertService» LLC).***

***30 dekabr 2005-ci il tarixli, 48-IIIQD nömrəli; 17 aprel 2007-ci il tarixli, 320-IIIQD nömrəli; 29 iyun 2012-ci il tarixli, 409-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***